# ELİN SEVƏN KİŞİLƏRƏ QOY ƏBƏDİ SALAM OLSUN!

## *Azərbaycan Prezidenti cənab İlham Əliyevin 64 illik yubileyi münasibəti ilə*

***Hörmətli Prezitentimiz İlham Əliyevin 65 yaşı tamam olur. Öncə deyək ki, 65 rəqəminin öz cazibəsi var. Bu rəqəm insan həyatının ölçüsü ilə müqayisədə böyük rəqəmdir. Ölçü vahidi kimi kiçik rəqəm deyil və bu ömrün içərisində həyatın uzaqlarda qalan məqamları, inamın və inadın gücü öz təsdiqini tapır.***

Ömür kitabını vərəqləyəndə görürük ki, hörmətli Prezidentimizin bu 65 ildəki bütün fəaliyyəti bizim gözmüzün qabağında olub. Geridə qalan, tarixləşən bu illərdə nə edibsə, Azərbaycanın tərəqqisi naminə edib.

Həyatın mürəkkəb pillələrindən mətinliklə addımlayıb keçən Azərbaycan Prezidenti geriyə boylananda çöhrəsində təəssüf yox, təbəssüm hisləri sezilir. Yola saldığı 65 ildə onun ürəyi həmişə Azərbaycanla döyünüb, nəbzi bir qayda olaraq Vətəni ilə vurub. Bir təəssübkeş vətəndaş kimi soydaşlarının yaxşı günlərinə sevinib, bəd günlərində kədərlənib. O, əmək fəaliyyətinə başlayandan bəri həmişə ədalətli olub, insanlara dəyər verib. Elinin-obasının daşını-kəsəyini, adi qanqal özəyini, tozunu-torpağını, hər saralmış yarpağını da əziz tutub.

Cənab Prezidentimiz mənəvi dəyərlərimizə yüksək qiymət verərək dədə-babalarımızdan bizlərə miras qalan xüsusiyyətləri uca tutub, milli mentalitetimizə həmişə hörmətlə yanaşıb. Xalqımızın ruhunu oxşayanlarla şərik olub. Vətənin müsəlləh əsgəri kimi qanunlarımızın keşiyində mərdliklə dayanıb.

Cənab Prezidentimizin 65 yaşının tarixə çevrilən illərini vərəqlədikcə gözümüzün önündə bütün möhtəşəmliyi ilə diqqəti çəkən kamil, ədalətli, bacarıqlı bir lider ömrü canlanır.

Möhtərəm Prezidentimiz saysız-hesabsız görüşlərdə iştirak edib, O, harada olubsa, hansı tədbirlərdə iştirak edibsə, doğma Azərbaycanın kiçik portretini ürəyində gəzdirib, yalnız Azərbaycanı düşünüb. Elə ən böyük uğurlarını da Vətənini düşünəndə qazanıb. Onun qəlbində millətinə, xalqına, vətəninə qarşı böyük sevgi var. Düşüncə sahibi kimi belə insanlar həmişə sevilirlər. Fəxrlə deyə bilərik ki, hörmətli cənab Przidentimiz nurlu əməlləri ilə Vətəninə, Xalqına xidmət edir. Bunu onun keçdiyi şərəfli yol bir daha sübut edir.

Öz sözünü dedi, oz yerini aldı. Sülh, təhlükəsizlik, inkişaf üçün gördüyü uğurlu, məqsədyönlü işlər bu gün öz bəhrəsini verməkdədir.

Liderlik təkcə güc və hakimiyyət deyil, eyni zamanda məsuliyyət, sevgi və fədakarlıqdır.

Altmış beş yaş - bir insan ömründə sadəcə, təqvim rəqəmi ola bilər...



Amma bəzi tale sahibləri var ki, bu yaşda öz xalqınn tarixini daşıyır, xalqın ümidlərini gerçəyə çevirir, ata vəsiyyətini yalnız xatırlamır, onu bütün millətin yaddaşına çevirir. Bu gün Azərbaycan xalqı İlham Heydər oğlu Əliyevin 65 illik yubileyini böyük coşqu ilə, təntənə ilə qeyd etməyə hazırlaşır. Bu, sadəcə, bir insanın yaş günü deyil, müstəqil Azərbaycanın dövlətçilik yolunda atdığı möhkəm addımların təntənəsidir. İlham Əliyev yalnız siyasi varis deyil, eyni zamanda xalqının dayağıdır, millətinin sabaha ünvanlanmış lideridir, Vətənin ümidlərinin reallaşmasında öncüldür. Tarix bu cür şəxsiyyətləri beş yüz ildən bir yaradır.

Tarixdə bəzi anlar vardır ki, onlar sadəcə, təqvimdə işarə deyil, qəlblərdə əbədi iz qoyur. İlham Əliyevin də Azərbaycanın inkişafı naminə atdığı addımlar sabaha ünvanlanıb. O, zamanın axarını izləməkdən çox, zamanın özünü yaratdı. Zamanın içində zamanın yaradılması dərin zəkanın təzahürüdür. Azərbaycan xalqı, eləcə də dünya dövlətləri yaxşı bilirlər ki, ilham Əliyev dediyi sözün ağasıdır, verdiyi vədi gerçəkləşdirən sözübütöv, əməlisaleh şəxsiyyətdir. Onun hər bir sözü xalqın səsini, hər bir addımı millətin gələcəyini ifadə edir.

Zəfər təkcə savaş meydanında deyil, səbrlə, təmkin və inadkarlıqla da qazanılır.

Qarabağ torpaqlarının işğaldan azad olunmasının ilk işığı onun əzmkarlığında parladı. İntiqam yox, ədalət eşqi ilə addımlayan İlham Əliyev xalqının haqqını qürurla müdafiə etdi. Çünki haqqın yolu heç vaxt qaranlıq ola bilməz. Onun rəhbərliyi altında Azərbaycan sarsılmaz iradəsi və qətiyyəti ilə böyük nailiyyətlərə imza atdı, dünyaya sözünü sözlə yox, əməllə dedi.

Milli iradənin təcəssümü olan İlham Əliyev xalqının zəfər hekayəsini yazmaqla kifayətlənmədi, həm də gələcəyə yol açdı, ümidləri çiçəkləndirdi, tariximizin yeni səhifələrini qızıl hərflərlə bəzədi. Onun fəaliyyəti nəticəsində Azərbaycan yalnız iqdisadi yüksəlişə nail olmadı, həm də beynəlxalq arenada ömrünü xalqına həsr edən bir tarixi şəxsiyyətin azad əsəri kimi tanındı.

Bu yubiley bir insanın deyil, bir xalqın qürurudur, bir dövlətin dirçəlişinin rəmzidir. Gələcək nəsillər üçün isə ilham mənbəyidir.

Fəxr ediləsi haldır ki, İlham Əliyev sarsılmaz iradəsi və qətiyyəti ilə hər bir çətinliyi fürsətə çevirdi, xalqının etimadını doğrultdu. O, bu gün özü qədər sevdiyi xalqının böyük sevgisini, nəhayətsiz məhəbbətini qazanıb. Bu sevgi və məhəbbət onu yalnız Azərbaycanda deyil, dünyanın hər yerində hörmətli və nüfuzlu liderə çevirib. İlham Əliyevin fəaliyyəti, uğurları gələcək nəsillərə örnəkdir, onların yolunu işıqlandıran bir mayakdır.

Hörmətli Prezidentimizə ad günü münasibətilə yazdığım şeirin bir neçə bəndini oxcularımızın nəzərinə çatdırmağı özümə borc bilirəm:

Hər yaşın öz cazibəsi,
Hər yaşın özəlliyi var.
Hər yaş ömrün bir parçası,
Hər yaşın gözəlliyi var.

Elin sevən kişilərə
Qoy əbədi salam olsun!
80, 90 fərq eləməz,
Təki yaddaqalan olsun.

Xalqın qeyrətli oğlu,
Xalqın şəfqətli oğlu
Mübarəkdir ad gününüz,
Mübarəkdi şad gününüz!

**Sevinc Mələk,**
*tovuzlu həkim-şair*